# Fotoportret



Esse

Gülnaz Qubalı

Bu hekayə oyanıqda belə yuxu görənlərin hekayəsidir.

Söhbətimi məhz elə, söz allahı sayılan, dahi, şeyx Nizami Gəncəvinin iki misrası ilə başlamaq istəyirəm.

**Bir şəkil söyləyir elə bil- gəl,gəl**
**"O, Surət deyildi, bir mahcamaldı ".**

Qarşıdakı divardan, gözlərimin önündən bir fotoportret asılıb. Qızılı çərçivədə, orta boyda olan gözəl qadın portreti. Hər gün səhər, axşam qarşılaşdığım, heyranlıqla tamaşa etdiyim, həyata təbəssümlə baxan, zədagan,əsilzadə, eyni zamanda sadə və məlahətli bir Azərbaycan xanımının fotoportreti. Adətən şəkillərdə insan baxışları və üzü donuq olur. Amma bu fotoportretdəki xanımın baxışları və üzü çox canlı və mənalı idi. İri qəhvəyi, sıx, qara kirpiklərlə əhatələnmiş, ulduz kimi parıldayan, məftunedici gözlərində gizli bir məna ilə birlikdə sirli, sehrli bir aləm görünürdü.

**Müəmmalı gülüş qonan mərcan kimi qıpqırmızı, prıldayan dolu dodaqları bu ay üzlü, gözəl xanımın özünə inamından, incəliyindən və xoşbəxtliyindən xəbər verirdi.**

## İlk əvvəldən

elə bu fotoportretə nəzər salan adam sehrlənir, ona kilidlənib asılı qalır, baxdıqca baxmaq istəyir. Çox cəlbedici bir surət, füsunkar bir gözəllik. Qəlbi işıqlandıran, ruhun qidası olan, ürəyi riqqətə gətirən, gözlərə nur, biləyə güc-qüvvət verən gözəlliyin meyarını dillə təsvir etmək qeyri-mümkündür. O ki ola, qeyri-adi, qüsursuz və əsrarəngiz bir gözəlliyin. Gözələ baxarkən;- sözün əsl mənasında insan canlanır, xoşbəxt görünür. Acı müşküllər bir anda əriyib yox olur, üzə bir təbəssüm qonur. Adamın dilindən istər-istəməz Maşallah, fotobərəkallah sözləri çıxır. Allah tərəfindən ilk əvvəl hər şeyin gözəli yarandığı üçün, mənə elə gəlir ki, elə ilk söz yarananda "gözəl" sözünü tələffüz etmişik, gözəllik yaranında gözəlliyin simvolu Hz. Həvva anamızı, Dünya yarananda isə, Allah kainatı gözəlliklər üzərində yaradıb ki, göz yorulmasın, insan usanmasın. Bu fotoportdəki gözəl xanıma otağın hansı tərəfindən baxıramsa - baxım, o da eynilə mənim nəzərlərimi izləyərək, eyni tərzdə mənə baxaraq, Allahın ona bəxş etdiyi gözəlliyi ilə ruh yüksəkliyi, gözəl aura və yaşam stimulu bağışlayırdı.

**Ümumiyyətlə, biz hardasa gözəllə, qarşılaşdığımız zaman çox qəribə bir hislər yaşayırıq və o təəssurat bizdə uzun müddət sürür, bədənimizdən bir gizilti keçir.** Nahar edəndə də, hər hansı bir işlə məşğul oianda da , daima o sima, o gözlər bizimlə olur. Gecə yatarkən belə o təəssurat davam edir. Mələk şəklində yuxularımıza qarışaraq göz önündə canlanır və onsuz da şirin yuxularımıza bir şirinlik , bir rəng və gözəllik qataraq, bizi valeh edir. Bizim isə ancaq bir arzumuz olar ki;- ay Allah, nə olardı sabah yenə eyni yuxunu görə biləydim;- deyərək, Allaha yalvarardıq.

## Şairlərin ilham mənbəyi olan,

çox rəssamın arzu etdiyi, çəkməyə can atdığı, həyəcanverici, qüsursuz bir qadın portreti ilə üzbəüz dayanmışdım. Allahın ən xoş saatlarında yaratmış olduğu bu xoşbəxt xanım, doğrudan da bir gözəllik ilahəsi, bir pəri və eyni zamanda tayı- bərabari olmayan, hafizələrdən silinməyən bir sənət əsəri idi. Bu şəkil insanı ona dönüb baxmağa məcbur edirdi.

**Çiyninə tökülən, uzun, parlaq, dalğalı şabalıdı saçları, mütənasib üz cizgiləri olan ağ, parıldayan yaraşıqlı üzünə xüsusi yaraşıq verməklə yanaşı, onun gözəlliyinə bir az da gözəllik qatırdı.**

Heç bir süni boyadan istifadə edilmədən çəkilən, bu fotoşəkildəki sima öz təbiiliyi ilə elə uzaqdan nəzər-diqqət cəlb edirdi. Günəş kimi parıldayan, əsil qadın gözəlliyini biruzə verən bu xanım, çox ehtimal ki, daxili gözəlliyinin cazibədarlığının ahəngdarlığını təşkil edirdi.

## Dünyanın bir çox mərkəz şəhərlərində

yerləşən muzeylərin divarlarında sərgilənən Rafael, Mikelanco, Leonardo do Vinçi kimi dahi rəssamların sehrli barmaqlarından , o cümlədən mükəmməl fırçasından çıxan birbaşa insanın daxili aləminə;- ürəyinə, ağlına nüfuz edən rəsm əsərləri ilə yanaşı qoyula bilən, hətta bir addım öndə gedən bir gözəllik ilahəsinin fotoportretinin tutduğu yüksək mövqenin tərənnümçüsü idi bu fotoportret. Adətən insanlar yuxularında belə gözəllərlə qarşılaşırlar. Bu xanım isə hal-hazırda dünyada, bizim aramızda yaşayır, öz qiymətli ömrünü sürür.

Dahi rus şairi A. S. Puşkinin yazdığı " Gözəl qız" şerində oiduğu kimi, şair müqəddəs varlıq oian qadının müqəddəs gözəlliyini belə təsvir edir ; -

**"Müqəddəs gözəlliyin önündə inan ki, sən,**
**Valeh olub qalacaq, səcdəyə gedəcəksən".**

**Şair, filosof; - B.Vahabzadə isə,"Gözəllik önündə kim alçalmadı", misrası ilə təbii gözəlliyə necə yüksək, ali bir dəyər verərək, bir misra ilə, fikir formalaşdırıb, rəy yürütdüyü göz qabağındadır." Qoğalı var, hökmü rəvandır" . "Dünyanı gözəllik xilas edəcək"- kimi deyimlər eləcə adi söz qismində deyilməyib. Bu cümlələrdə böyük bir hikmət var.**

Doğrüdan da heç vaxt solmayan "Gözəllik" Allah tərəfindən çox az insana bəxş edilən hədiyyədir, sərvətdir. Gözəl qadın, eyni zamanda əhəmiyyətli bir varlıqdır.

## Zamanın donmuş forması

olan, bu gözəl qadın fotoportretinə baxmaqla, bir çox şeyi dərk etmək olar.Yetər ki, ürək, bəsirət gözünüz açıq olsun;- Allahı, həyatı, gözəllikləri və insana verilən ali dəyərləri. Sənətə və sənətkara verilən qiyməti. İstedad və fitri istedad arasındakı fərqi kimi yüksək xüsusiyyətləri. Eləcə çox insan gözəllikdən çox şey qavramaqan yanından ötüb keçir.

Hətta bu korşalmış hislərlə dünyadan belə köçüb gedir.Nə çoxdur yer üzərində gözü olub, baxıb, amma gözəllikləri görməyən insanlar. Mənəviyyatı zəngin, ürək, bəsirət və ağlın gözü açıq olan insanlar eləcə gözəllik önündən laqeyd keçə bilməzlər. Onu yaradan Allah, dünyaya gətirən ana və fotoqrafçı haqqında ən azından bir neçə layiqli söz deməyi özünə borc bilməli, bacarmalıdır.

## Ümumiyyətlə,

**insanı ağıl və duyğu idarə edir. Göz gözələ sataşaraq ağılı arxa planda qoyür və sükut içində danışan hisslərlə, duyğuya təslim olur. Duyğu, bir addım önə çıxaraq uğrunda ölümə gedə bilinəcək eşq adlı xəstəliyə çevrilir və bir çox adi insanları yaradıcılığa, şair, rəssam, bəstəkar edir. Özünü ayrı-ayrı insanların gözü ilə sevdirən gözəllik, hətta əlçatmaz olanda isə, gücünü, hissini cəsarətə birləşdirə bilməyən, ürəkdən vurulan insanları divanə edib, dərdə salan, vaxtsız qocaldan və bir əzrayıla çevrilib öldürən də, məzara sürükləyən  də elə gözəlliyin özüdür ki, var. HəllacYusifin başına gələn müsibətlər məhz elə gözəlliyinin ucbatından gəlmədimi? Gözəllik insana dost da qazandırır, düşmən də.**

Bir də onu vurğulayım ki, Allahın yaratdığı gözəlliyi heç bir insan əli yarada bilməz, ancaq və ancaq təkrar edə bilər. Əsası o idi ki, cazibəsi ilə insanın gözlərini qamaşdıran, heyrətə gətirən bu gözəl xanımın fotoportretini heç bir rəssam çəkməmişdi. Sadəcə olaraq öz işinin ustası olan fotoqrafçının çəkdiyi kiçik həcmli şəklin böyüdülüb, çox yüksək zövqlə seçilmiş çərçivəyə salınmış "fotoportret" adı verdiyimiz forması idi ki, divardan asılmışdı. Bu fotoportretdəki gözəlin əsl rəssamı isə uca Yaradan, bütün gözəllikləri özündə cəmləşdirən Allah idi və bu möhtəşəm əsər, əlbəttə ki, onun fırçasının kəraməti idi.

Yaxalığı çox da açıq olmayan qara məxmər libasından tarım, çəhrayı atlas kimi parıldayan dərisi göz oxşayırdı.Və mən Allahın bizə bağışladığı, lütf etdiyi, haqqında söz açılan fotoportretdəki gözəl, bir çox qəlblərdə yer tutan, ürəkləri fəth edən, yəni Salatın xanımın şəkli qarşısında lal sükutla dayanıb, gözlərimi şəklə zilləyərək, pıçıltı ilə Allaha sonsuz şükürlər əta edə-edə minnətdarlığımı bildirirdim. Bu yerdə sözümü Mikayıl Müşviqin bir bənd şeri ilə tamamlamaq istəyirəm;

**"Xoşdur gözəl görüb bütün elliyi,**
**Çalışmaq, yaşamaq, sevmək, sevilmək.**
**Xoşdur xilqətdəki hər gözəlliyi,**
**Ürəkdən duyaraq anlaya bilmək!"**

Ədalət 2019.- 16 noyabr.- S.7.